materialları., 17-19 may, Bakı, 2008.
3. Təhsilin modernləşdirilməsinin elmi-nəzəri problemləri. Bakı: Mütərcim, 2015. 450 s.
4. Veysova Z. Fəal interaktiv təlim: Müəllimlər üçün vəsait. Bakı, 2007.156 s.

## ALİ MƏKTƏB TƏLƏBƏLƏRİNİN TƏRBİYƏSİNİN SOSİAL-PEDAQOJİ ƏSASLARI

*Tanrıverdiyeva Zülfiyyə Vaqif*
*İsmayılova Ayşən Fəxrəddin*
*Mingəçevir Dövlət Universiteti*

Ali məktəblərdə tələbə şəxsiyyətinin inkişaf prosesində özünütəhsilin, özünütərbiyənin, özünü təkmilləşdirmə cəhdinin rolu çox böyükdür. Təlim və tərbiyə tələbəni özünütəhsilə və özünütərbiyəyə cəlb etmirsə, deməli, məqsədəmüvafiq deyil. Doğrudan da, ən məzmunlu, ən maraqlı mühazirə tələbənin şəxsi idrak fəaliyyəti ilə möhkəmləndirilməzsə, öz-özlüyündə mütəxəssis hazırlığını təmin edə bilməz. Qanunauyğun olan budur ki, xarici təsirlər tələbənin daxili aləmi ilə şərtlənir. Xarici aləmin tələbəyə göstərdiyi hər bir təsir onun keçmiş yaşantıları ilə bağlıdır. Deməli, pedaqoji təsirlər artıq kök salmış olan müsbət keyfiyyətlərə əsaslandığı halda daha effektli olur. Tələbənin psixikası, davranış və fəaliyyət motivləri, fərdi keyfiyyətləri onun bir şəxsiyyət kimi inkişafının daxili amilləridir.Qanunauyğun haldır ki, psixi inkişaf düz xattlə getmir. Bu eynilə tələbənin də psixi inkişafına aiddir. Bu, onda öz ifadəsini tapır ki, psixi proseslər və fərdi keyfiyyətlər müxtəlif zaman və məkan kəsiyində, həm də ayrı-ayrı tələbələrdə özünəməxsus formada inkişaf edir. Bu isə o deməkdir ki, ali məktəbdə təlim və tərbiyənin nəticələri tələbələrin malik olduqları şəxsi keyfiyyətlərdən, ixtisasa və təlim əməyinə münasibətlərindən, kollektivə və özünə yanaşma tərzindən asılıdır. Deməli, mütəxəssis tərbiyəsi təkcə optimal daxili və xarici amillərdən deyil, həm də tələbənin daxili psixi inkişaf qanunauyğunluqlarından asılıdır. Pedaqoji təsir o zaman effektli olur ki, onun məzmun və formaları həm təlim-tərbiyənin məqsədinə, həm də tələbənin yaş, fərdi və sosial xüsusiyyətlərinə uyğun olsun. Ali məktəbdə təlim və tərbiyənin vəhdətini müəllim yalnız o zaman təmin edə bilər ki, təlim-tərbiyə məqsədlərini real surətdə kursdan-kursa keçdikcə, tələbənin inkişaf dinamikasına uyğun tərzdə müəyyənləşdirsin, müvafiq mütəxəssisin professioqramını yaxşı bilsin. Ali məktəbdə hər bir fənnin məzmunu müəyyənləşdirilərkən tədris fənninin qarşısında duran təhsil vəzifələri ilə yanaşı, tərbiyə məqsədləri də konkretləşdirilməlidir. Ona görə də hər bir müəllim tədris etdiyi fənnin məzmunu vasitəsilə tələbəyə hansı əxlaqi keyfiyyətləri aşılamaq mümkün olduğunu bilməli, gələcək mütəxəssis üçün zəruri olan idraki, əxlaqi, estetik, fiziki keyfiyyətləri, fəaliyyət və davranış normalarını aydın təsəvvür etməlidir. [3, s.25]. Respublikamızda iqtisadi, siyasi, mənəvi inkişafın gələcək üfüqləri onun hər bir vətəndaşının şüurkıluğıından. intizamından, idraki və yaradıcı fəaliyyətindən asılıdır. Deməli, qarşıda duran quruculuq vəzifələrini həyata keçirmək üçün vətəndaşların tərbiyəsi daha yüksək səviyyəyə qaldırılmalı, bu məqsədlərin yerinə yetirilməsi təmin edilməlidir. Tərbiyə prosesinin dialektikası insanın fərdi

xüsusiyyətlərinin nəzərə alınması ilə başlayır.

Tələbələri yaxşı öyrənmədən tərbiyə prosesinin səmərəliliyini və intensivliyini təmin elmək mümkün deyil. [4, s.18 ]. Tələbəni düzgün tərbiyə etmək üçün onun hərəkətlərini və davranışını adekvat surətdə qiymətləndirmək, onun müsbət və mənfi cəhətlərini düzgün müəyyənləşdirmək lazımdır. İctimai rəyin, tərbiyəvi ənənələrin, müsbət nümunənin və təcrübənin də təsirini qeyd etmək lazımdır. Hər bir pedaqoq tərbiyə etmək sənətinə bələd olmalı, öz təcrübəsində yeni tərbiyə metodlarını öyrənməli, ümumiləşdirməli və yaradıcılıqla istifadə etməlidir. Təcrübə göstərir ki, tərbiyə sisteminin ayn-ayrı elementləri. prinsipləri, metodları ilə şəxsiyyətin inkişaf qanunauyğunluqları arasında müəyyən uyğunsuzluq var. Ən geniş yayılmış uyğunsuzluq ali məktəbdə tərbiyə işinin orta məktəbdəkinə nisbətən zəif təşkili, digər tərəfdən isə, məhz ali məktəbdə şəxsiyyətin hərtərəfli inkişaf etdirilməsi ideyasının pozulmasıdır. Hərtərəfli inkişaf ideyasını mənimsəmək və onu gündəlik işdə reallaşdırmaq, məhz bu gün cəmiyyətimizdə ən çətin və ən vacib problemlərdəndir. Ali məktəbin tərbiyəvi iş sistemində formalizm və subyektivizm tərbiyə işinə birtərəfli və qeyri-elmi yanaşmanın nəticəsidir. [1, s.54]. Müasir tərbiyə nəzəriyyəsi və praktikasında kök salmış belə bir səhv mövqe mövcuddur ki, guya insanın inkişafının əsas amili yalnız və yalnız onun şüurluluq səviyyəsidir. Bununla da süni olaraq, şüur davranışdan ayrılır və biri-birinə qarşı qoyulur. Söz yox ki, şüurluluq bizim tərbiyə işində əsaslandığımız əsas amildir, lakin yeganə deyil. Şüurluluğun insanın inkişafında yeganə amil kimi qəbul edilməsi tərbiyə işini çox ağır bir işə çevirir, tərbiyə prosesinin effektivliyini azaldır. Halbuki, etik normalar şüurdan ümumi təcrübəyə, ənənələrə, adətlərə keçdiyi təqdirdə, daha nüfuzedici xarakter daşıyır, daha qüvvətli və tez təsir etmək imkanı qazanır, ictimai rəy tərəfindən «dəstəklənir

Tərbiyə işində insanın sinir-psixi sferasının, yəni onun iradəsinin, xarakterinin, təxəyyülünün, hisslərinin, temperamentinin özünəməxsus xüsusiyyətlərini nəzərə almaq və ona zəruri adətləri aşılamaq gərəkdir. Ancaq bu halda insanın hərəkətləri, davranışı onun şüuruna daha çox uyğun gələcək. Ümumiyyətlə, adət və vərdişlər tərbiyə etməklə tərbiyə işi üçün möhkəm Özül yaradılmış olur. Ali məktəbdə qabaqcıl pedaqoji təcrübə göstərir ki, müasir şəraitdə təlim və tərbiyə işini ancaq ənənəvi yollar və formalarla qurmaq olmaz. Müasir şəraitdə ali məktəbdə istər təlim, istərsə də tərbiyə işi daha çox məlumatverici xarakter daşıyır. Təlim və tərbiyənin bu iş forması zamanı müəllimin əsas diqqəti təlim və tərbiyə proqramının məzmununa yönəlir, tələbə arxa plana keçir, onun fərdi imkanları unudulur. Belə bir mövqeyi əsas götürən müəllimin, bir qayda olaraq, tələbə ilə ayrıca məşğul olmağa nə vaxtı qalır, nə də həvəsi. Tələbənin rastlaşdığı çətinliklər, onun motivləri, tələbatı, iş qaydaları müəllimi maraqlandırmır . Son dövrdə ali məktəbdə təlim prosesi ənənəvi formaları saxlamaqla yanaşı, cəmiyyətin və elmi-texniki tərəqqinin təsiri altında tədricən təkmilləşməkdədir. Bir çox ixtisaslar üzrə tədris planlarına və proqramlara yenidən baxılır, kurrikumlar hazırlanır. Daha keyfiyyətli dərsliklər və tədris vəsaitləri, metodik tövsiyələr hazırlanır. Etiraf etmək lazımdır ki, yuxanda adı çəkilən tədbirlər ali məktəbin təlim-tərbiyə fəaliyyətində müəyyən irəliləyişlərə səbəb olmuşdur. Lakin bütün bu ideyalar tələbə şəxsiyətinə fəal təsir amillərini müəyyənləşdirmədən və pedaqoji praktikaya tətbiq etmədən təlim-tərbiyə nəzəriyyəsinə və praktikasına

özlüyündə bir şey verə bilməz. Ali məktəbin müasir vəziyyəti bu problemləri həll etməyi tələb edir. Bu isə təlim-tərbiyə nəzəriyyəsini zənginləşdirmədən qeyri-mümkündür. Çünki təlim-tərbiyənin hər bir yeni proqramı, nəticə etibarilə, təlim-təriyə nəzəriyyəsinin praktik olaraq reallaşdırılmasıdır. Bu, o deməkdir ki, təlim işini daha intensiv qurmaq, tələbələrin potensial qüvvə və imkanlarından maksimum düşünülmüş şəkildə və «qənaətlə» istifadə etmək, zəruri ləlim materialını məqsədəuyğun surətdə seçmək, tələbələrə pedaqoji cəhətdən əsaslandırılmış ən tipik, ən zəruri, ən effektiv tapşırıqlar vermək, vaxta maksimum surətdə qənaət etmək, tələbələrin müstəqil işlərinin daha rasional metod və priyomlarından istifadə etmək, elmə olan marağı daha da inkişaf etdirmək, ixtisasla bağlı biliklərin mənimsənilməsi cəhdini artırmaq lazımdır. Ali məktəbdə təlim və tərbiyə prosesi müəyyən ümum-pedaqoji qanunauyğunluqlara və qaydalara tabedir. Bununla belə, həm təlim, həm də tərbiyə prosesinin məzmunu, vəzifələri, yolları və təşkili formaları özünəməxsus spesifik xüsusiyyətlərə malikdir. Beləliklə, ali məktəbdə təlim-tərbiyə işini təkmilləşdirməyin daha bir neçə istiqamətini qeyd edə bilərik, ali məktəbdə təlim prosesinin təşkilinin yeni formalarını müəyyənləşdirmək, tədris metodikasının ümumi məsələlərini işləmək, xüsusi metodikaları təkmilləşdirmək, ali məktəbdə pedaqoji psixologiyaya diqqəti artırmaq lazımdır.


***Ədəbiyyat:***

1. Rüstəmov.F.Dadaşıva.T.Ali məktəb pedaqogikası. Bakı, 2007.
2. Əhmədov H.M. Azərbaycan məktəb və pedaqoji fikir tarixi. Bakı: Təhsil, Elm, 2001.
3. Əliyev İ.İ Ümumtəhsil məktəblərində etnopedaqoji materiallardan istifadənin nəzəri və əməli məsələləri. Bakı: Nurlan, 2004.
4. Əliyev R.İ. Tərbiyə psixologiyası. Bakı: Nurlan, 2006.
5. Əliyev İ.İ. Azərbaycan etnopedaqogikası. Bakı: Nurlan, 2010.


## YERIN DƏRINLIYINDƏN BEYIN DƏRINLIYINƏ KÖÇ (NEFT KAPITALINI INSAN KAPITALINA ÇEVIRƏK)


*Xancanlı Cavid Davud*
*Mingəçevir Dövlət Universitetinin*


Bu məruzənin əsas məqsədi ölkəmizin iqtisadi maraqlarını qeyri-neft sektorunun, sahibkar istehsalçılığının strateji insan resurslarının inkişafı istiqamətində səfərbər etməkdir. Azərbaycan iqtisadiyyatının yeni hədəfi milli gücünü yerin dərinliyindən deyil, beyin dərinliyindən almaqdır. Çünki yaşadığımız bilgi və texnologiyalar çağında hər bir dövlətin gücünü ölkənin təbii sərvətləri deyil, ölkə insanının intellektual potensialı təyin edir. Çağımıza qədər iqtisadi rəqabət onun qol gücündən asılı idi. Çağımızda beyin gücündən asılıdır. Çağımız keçmişlə deyil, gələcəklə yarış çağıdır. İnsan beyni artıq keçmişin əl əməyi ilə deyil, gələcəyin süni zəkası ilə rəqabətdədir. Dövlət başçımız Cənab İlham Əliyevin də bu məsələyə xüsusi diqqət ayırması da bu fərqindəliyin təzahürüdür. Artıq hər bir dövlət, cəmiyyət üçün müasir iqtisadi güc məkanı deyil, zamanı yaxalamaq bacarığıdır. Yaşadığımız bilgi